yaxşı saatlardır. Pak niyyətlə ramazanı qarşılayanlar sanki İlahi ziyafətinə dəvət alırlar. Bu vaxt Allah-Taala özünün rəhmət nəzəri ilə bəndələrinə baxır, onların dualarını qəbul edir. Qüdrət və əzəmət sahibi öz izzət cəlalına And içmişdir ki, bu ayda namaz qılıb səcdə edənlərə əzab etməyəcək və Qiyamət günü onları cəhənnəm əzabı ilə qorxutmayacaqdır.

Ramazan ayını "Quran"ın baharı adlandırırlar. Çünki bu ayda "ilahi kitab" daha çox oxunur. Müsəlmanlar ramazan ayında dünyadan köçmüş əzizlərinin ruhuna "Quran" xətm elətdirir, qadir Tanrıdan bağışlanmalarını diləyirlər. Ramazan günlərində cənnətin qapıları açıq, cəhənnəmin qapıları bağlı olur. Dini mənbələrdə qeyd olunur ki, bu ayda bir ayə "Quran" oxumağın savabı başqa aylarda "Quran" xətminə bərabərdir. Bu ayda yoxsullara, imkansız insanlara iftar verməyin savabı da böyükdür.

Əmirəlmöminin Həzrət Əli (ə) buyurur: "Hər şeyin zəkatı vardır, bədənin zəkatı da orucdur... Allah orucu bəndələrinin ixlasını (saflığını, səmimiyyətini) sınamaq üçün əmr etdi". Çünki oruc Allah xatirinə, pak qəlblə, saf niyyətlə tutulmalıdır. Həzrəti Əli (ə) bədən üçün pəhrizkarlığı, təqvanı əsas amil sayaraq buyurur: "Bir parça oruc tutanlar var ki, onların orucdan əldə etdiyi ancaq aclıq və susuzluqdur... Bədənin orucu iradə və ixtiyarla əzabdan qorxub savaba, əcrə (mükafata) nail olmağı diləyərək yeməkdən kəsilməkdir. Nəfsin orucu - beş duyğunu (dil, göz, burun, qulaq, dəri) günahlardan çəkmək və qəlbi bütün şər əməllərdən ayırmaqdır. Qəlbin orucu dil orucundan, dilin orucu qarnın orucundan xeyirlidir".

Doğrudan da olduqca dəyərli, qiymətli ifadələrdir. Oruc tutanın qəlbi, dili, gözü və digər duyğu üzvləri də oruc tutmalıdır. Qəlbin orucu odur ki, insan oruc halında ürəyində pis fikirlərə yer verməsin. Dilin orucu odur ki, insan namünasib sözləri dilinə gətirməsin, yaxşı sözlər desin, cəmiyyətdə yaxşı davransın, tez-tez qüdrət və cəlal sahibinin zikri ilə məşğul olsun, İlahi kəlamını tilavət eləsin və s. Əgər insan oruc halında aclıq və susuzluqdan əziyyət çəkirsə, lakin dilini dinc saxlamayıb kiminsə qeybətini edirsə, tutduğu orucun hec bir faydası yoxdur.

"Qurani-Kərim"də orucluq günlərinin dəqiq vaxtı, onun faydası, kimlərin həmin günlərdə oruc tuta bilməmələri və s. məsələlər ətraflı qeyd olunur: "Oruc tutmaq sayı müəyyən olan (bir ay) günlərdir. Bu günlərdə xəstə və ya səfərdə olanlar da tutmadığı günlər qədər başqa günlərdə oruc tutmalıdırlar. Oruc tutmağa taqəti olmayanlar isə (hər günün əvəzində) bir yoxsulu doyuracaq qədər fitrə verməlidirlər. Hər kəs könüllü xeyir iş görərsə (həm oruc tutub, həm fitrə verərsə), bu onun üçün daha yaxşı olar. Bilsəniz oruc tutmaq sizin üçün nə qədər xeyirlidir.

İnsanlara doğru yolu göstərən, bu yolu açıq dəlilləri ilə aydınlaşdıran və (haqqı batildən) ayıran "Quran" ramazan ayında nazil edilmişdir. Aya (ramazan ayına) yetişən şəxslər (bu ayı) oruc tutmalıdırlar, xəstə və ya səfərdə olanlar isə tutmadığı günlərin sayı qədər başqa günlərdə tutsunlar. Allah sizin üçün ağırlıq deyil, yüngüllük istər ki, fövtə getmiş günlərin orucunu tamamlayasınız və sizi düz yola yönəltməsinə görə Ona ("Allahu Əkbər" deməklə) təzim və şükr edəsiniz". ("Bəqərə" surəsi, 184-185-ci ayələr, səh. 30-31). Ayələrdən aydın olur ki, ramazan ayına yetişən hər bir müsəlmanın bu ayın günlərində oruc tutmasının vacibliyi Allah əmridir. Ulu Tanrı bəndələrinə qarşı mehribandır. Oruc tutmağa taqəti olmayan və səfərə çıxanlara güzəştlər vardır. Onlar başqa günlərdə (tuta bilmədikləri günlərin sayı qədər) bu vacib əməli icra etməlidirlər. Əgər xəstəlik insana imkan vermirsə oruc tutsun, bədəni zəifdirsə, onda həmin şəxs hər günün əvəzində bir yoxsulu doyuracaq qədər (kasıba) fidyə (kəffarə) verməlidir.

Qadir Allah ayədə müsəlmanlara müraciətlə orucun onlara olduqca xeyirli olduğunu bildirir. Doğrudan da, insan çox vaxt ona çox xeyirli olan şeyləri dərk etməkdə çətinlik çəkir. Hər bir ağır işin mükafatı da ona layiq olur. Bu mənada orucluğun şərtlərini yerinə yetirmək insandan sarsılmaz iradə, səbr və dözüm tələb edir. Şübhəsiz ki, bu çətinliyin öhdəsindən layiqincə gələn şəxs üçün Tanrı mükafatı da yüksək olacaqdır. Ayənin sonunda oruc tutanlardan qadir Allahın onları düz yola yönəltdiyinə görə Ona təzim və şükr etmələri istənilir. Təzim ramazan ayında qılınan namazlara, şükr isə edilən zikr və dualara işarədir. Bunlar da insanın özünə xeyirlidir, onu ulu Tanrıya yaxınlaşdırır.

Ramazan ayının sona çatmasını bütün müsəlman dünyası böyük sevinc və fərəhlə qeyd edir. Şəvval ayının ilk günündə keçirilən bu şənlik Fitrə (Ramazan) bayramı adlanır. Ramazan ayının (bu ay 29 və ya 30 gün olur) son gününün axşamında təzə ay görünəndən sonra hər bir müsəlman ailəsinin başçısı ailə üzvlərinin sayına uyğun fitrə zəkatı çıxarır. Fitrə vermək ramazan orucunun qəbul olunma şərtlərindən biridir. Səbr, dözüm, nəfsin böyük imtahanı günlərini müvəffəqiyyətlə başa çatdırdıqlarına görə müsəlmanlar sevinir, Haqq dərgahına dualar edirlər. Fitrə bayramı günündə (günəş çıxandan sonra) bayram namazı qılınır, insanlar bir-birini təbrik edir, oruc, namazlarının Tanrı dərgahında qəbulunu diləyirlər. Yaxın qonşular, qohumlar, dostlar bir-birinin görüşünə gedirlər. Bayram sevinci insanlar arasında səmimiyyəti, mehribanlığı, mərhəməti, dostluğu artırır. Ramazan bayramında müsəlmanlar qəbiristanlığa gedir, doğmalarının qəbirlərini ziyarət edir, ruhlarına "Quran" surələrini oxutdururlar.

● **Hacı BAYRAM**